**BMT-nin iqtisadi statistikaya dair İdarəetmə Qrupunun ikinci görüşü keçirilmişdir**

22-24 avqust 2012-ci ildə BMT-nin və Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyası tərəfindən Tailand Krallığında iqtisadi statistikaya dair regional proqram üzrə İdarəetmə Qrupunun ikinci görüşü keçirilmişdir.

58 üzv ölkə arasından İdarəetmə Qrupuna seçilmiş 14 ölkənin nümayəndəsi, o cümlədən Dövlət Statistika Komitəsinin şöbə müdiri Y.Yusifov tədbirdə iştirak etmişdir.



Görüşün əsas məqsədi "İqtisadi statistikanın inkişafı üçün regional proqramın tətbiqi planı"nın layihəsinin müzakirə edilməsi olmuşdur. Bu plan, iqtisadi statistika üzrə əsas göstəricilərin qəbulu, statistikaya himayədarlıq, insan resurslarının bacarıqlarının, biliklərinin artırılması, statistikanın infrastrukturunun inkişafı, əlaqələndirilmənin təkmilləşdirilməsi, əldə olunmuş nəticələrin monitorinqi və proqramlara baxış, təcrübələrin bölüşdürülməsi kimi elementləri əhatə edən Proqramın tətbiqi məqsədilə İdarəetmə Qrupu tərəfindən hazırlanmışdır. Dövlət Statistika Komitəsi də planın hazırlanmasında iştirak etməklə regional proqrama və iqtisadi statistikaya dair ehtiyacları müəyyənləşdirmiş, MHS 2008-in tələblərinə uyğun hazırlanmış milli fəaliyyət proqramı, onun yerinə yetirilməsi haqqında, iqtisadi statistika üzrə əsas göstəricilərin mövcudluğu üzrə vəziyyətlə bağlı arayış-sorğu və qiymətləndirmə vərəqini dolduruaraq Komissiyaya göndərmiş, planla bağlı rəy və təkliflərini bildirmişdir.

Tədbirdə planın tətbiqi mexanizmi, onun müşahidəsi, prioritetlərlə bağlı informasiyaların əldə edilməsi, fəaliyyət planı, institusional və texniki komponentlər, qiymətləndirmə, institusional və texniki komponentlərlə bağlı həyata keçiriləcək fəaliyyətlər, qarşıya çıxa biləcək risklər və ehtimallar, proqramın əlaqələndirilməsi, regional proqramın yeni versiyasının ümumi strukturu, əhatə olunacaq məsələlər müzakirə olunmuşdur.

Qərara alınmışdır ki, fəaliyyətlərin düzgün və vaxtında planlaşdırılması üçün mövcud materiallar, o cümlədən ölkə təcrübələrinə dair informasiyalar katibliyə göndərilsin.